# 2016-cı il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarətinin vəziyyəti

Naxçıvan Muxtar Respublikasının 2016-cı il ərzində 56 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi **463244,8** min ABŞ dolları olmuşdur. Bu müddət ərzində **419120,8** min ABŞ dolları dəyərində mal ixrac, **44124** min ABŞ dolları dəyərində mal idxal olunmuş, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo **374996,8** min ABŞ dolları təşkil etmişdir.2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2016-cı ildə ixrac əməliyyatlarının həcmi 1,1 % (4700,2 min ABŞ dolları) artmış, idxal əməliyyatlarının həcmi isə 54,9 % (53809.9 min ABŞ dolları) azalmışdır.



İxrac əməliyyatlarında xüsusi çəkisi böyük olan dövlətlərdən Türkiyə Respublikası,İran İslam Respublikası,Rusiya Federasiyası,Birləşmiş Ərəb Əmirlikləri,Gürcüstan Respublikası və digərlərinin adlarını çəkmək olar. Hesabat dövrü ərzində 419120,8 min ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bunun 320020,8 min ABŞ dollarını, yəni ümumi ixracın 76 %-ni sənaye məhsulları, 99100 min ABŞ dollarını, yəni ümumi ixracın 24 %-ni isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir. Qeyd edək ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının ixracı 1 %,kənd təsərrüfatı məhsullarının ixracı isə 1,5 % artmışdır.

İxracın strukturunda əsas yeri tutan əmtəələrin miqdarı və dəyəri aşağıdakı kimidir:




İdxalın strukturunda əsas yeri tutan əmtəələrin miqdarı və dəyəri aşağıdakı kimidir:

| | **Dəyər (min ABŞ dolları)** |
|---|---|
| 1. Sənaye məhsulları- | 22803,6 |
| 2. Digərləri- | 16073,1 |
| 3. Nəqliyyat vasitələri və onların hissələri- | 3412,1 |
| 4. Tikinti materialları- | 1144 |
| 5. Ərzaq məhsulları- | 691,2 |




İdxal əməliyyatlarının ölkələr üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:



Qeyd etmək lazımdır ki, hesabat dövründə idxal əməliyyatlarında dövlət sektorunun payı 14920,2 min ABŞ dolları, yəni ümumi idxalın 34 %-ni, özəl sektorun payı 27284,4 min ABŞ dolları, yəni ümumi idxalın 62 %-ni, fiziki şəxslər isə 1919,4 min ABŞ dolları, yəni ümumi idxalın 4 %-ni təşkil etmişdir.




2016-cı il ərzində müvəqqəti idxal rejimində muxtar respublikaya 77,9 min ABŞ dolları dəyərində, 5,5 ton mal gətirilmişdir.